**UOT 338.001.336**

***Ramil Ələysəd oğlu ƏSGƏROV***
***Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı***

# MİLLİ İQTİSADİYYATDA BİZNESİN İNKİŞAFININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi:** biznes fəaliyyətinin milli iqtisadiyyatdakı rolunu tədqiq etmək və biznes fəaliyyətinə təsir edən amilləri müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** - tədqiqat işində müqayisəli təhlil, qruplaşdırma, ümumiləşdirmə və təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** biznesin daxili və xarici mühit amillərinin destruktiv təzahürlərinin neytrallaşdırılması mahiyyət etibarilə iqtisadi aktivliyin və sahibkarlıq aktivliyinin yüksəldilməsinə əlverişli şərait yaradır ki, bu da həm milli iqtisadiyyatın biznes cəlbediciliyinin yüksəlməsinə müsbət təsir göstərir və eyni zamanda sahibkarlıq və biznes fəaliyyətinin səmərəli qurulmasının perspektivliyini yüksəldir. Bu baxımdan milli iqtisadiyyatda biznesin inkişafının daxili və xarici təhdidlərinin neytrallaşdırılması mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəticələri** - ölkədə biznes qurumlarının milli iqtisadiyyatda rolunun artırılmasına nail olmaq, davamlı biznes fəaliyyətini gerçəkləşdirmək, milli biznes qurumlarının dünya təsərrüfatçılıq sisteminə effektiv inteqrasiyasını təmin etmək məqsədilə tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - biznes qurumlarının səmərəliliyinin artırılması, biznes infrastrukturlarının formalaşdırılması istər istehsalçılar, istərsə də istehlakçılar üçün əlverişli biznes mühitinin yaradılması, biznes fəaliyyətinə destruktiv təsir göstərən amillərin müəyyənləşdirilməsi.

***Açar sözlər: milli iqtisadiyyat, biznes fəaliyyəti, biznes mühiti, istehsal münasibətləri, investisiya mühiti.***

## *Giriş*

Cəmiyyətdə məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə biznes fəaliyyəti əslində kifayət qədər riskli və məsuliyyətli bir fəaliyyət növünə çevrilir. Biznes fəaliyyəti mövcud nəyi isə izah etmək və yeni bir şeyi icat etmək və təkmilləşdirmək arzusu ilə əlaqədar bir fəaliyyət növüdür. Sahibkarlıq fəaliyyətinin xarakterik olan məqamlarından biri də dinamizm təşəbbüskarlıq cəhətləridir və bütün bunlar kifayət qədər innovativ xarakterli ideyaların reallaşdırılmasında əhəmiyyətli rol oynayır. Qərb ölkələrində müasir biznes fəaliyyəti daim yeni imkanlar üzə çıxartmaq potensialına malik bir fəaliyyət kimi dəyərləndirilir. Müasir sahibkarlıq fəaliyyəti eyni zamanda bu və ya digər problemi həll etmək və müxtəlif mənbələrdən maliyyələşməni reallaşdırmaq imkanına malik olan təşəbbüskarlıq qabiliyyətinin məcmusu kimi səciyyələnir. Biznes fəaliyyəti üçün iqtisadi azadlıq da əhəmiyyətli faktorlardan biridir. Xüsusilə postindustrial cəmiyyətin formalaşdığı müasir şəraitdə sahibkarlıq innovativ fəaliyyəti özündə əks etdirən, yenilikləri reallıqlara çevirən və eləcə də bürokratik proseslərə zidd olan fəaliyyət kimi xarakterizə edilir.

**Müasir şəraitdə milli iqtisadiyyatda biznes fəaliyyətinin rolu**

Cəmiyyətdə məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə biznes fəaliyyətinin xarakteri və xüsusiyyətləri də özünün əvvəlki klassik sərhədlərini aşaraq yeni xarakter almağa başlayır. Əgər ilkin dövrlərdə biznes fəaliyyəti məhsul istehsalı və xidmətlərin göstərilməsi və satışı ilə əlaqəli bu və ya digər fəaliyyəti özündə əks etdirirdisə, hazırkı şəraitdə sahibkarlıq eyni zamanda innovativ xüsusiyyətləri özündə əks etdirən axtarış və inkişafdan ibarət ola biləcək yenilikçi bir fəaliyyət növü kimi səciyyələnir.

Bazar iqtisadiyyatına keçidin ən mühüm xarakterik məqamlarından biri azad biznes fəaliyyətinə əlverişli şərait yaratmaqdan ibarət olub, əldə edilən mənfəətin həcminin yüksəldilməsinə nail

olmaqdan ibarətdir. İ.e.d.,professor Alıcan Abbasovun fikrincə, biznesin məqsədi uzun müddət öz fəaliyyətində cəhd etdiyi son nəticədir. Biznesin məqsədi onun xarakterindən, inkişaf səviyyəsindən asılı olaraq müxtəlif ola bilir. Onlardan ən mühümləri aşağıdakılardan ibarətdir:

- mənfəətin alınması;
- biznesin inkişafı üçün zəruri vəsaitlərin toplanması;
- cəmiyyətə lazımi əmtəə və xidmətlərin təqdim edilməsi;
- bazarda, sahədə qabaqcıl mövqeyə nail olunması;
- istehlakçıların tələbatının optimal şəkildə ödənilməsi;
- öz əməkdaşlarına imkanlarını reallaşdırmaq imkanının verilməsi.

Biznesin məqsədində əsasən qarşıya konkret vəzifələr qoyulur və həyata keçirilir. Biznesin məqsədi ilə qarşıya qoyulan vəzifələr qarşılıqlı əlaqədardır. Belə ki, əgər biznesin məqsədi fəaliyyətin konkret istiqamətini müəyyənləşdirirsə, vəzifə həmin məqsədə kəmiyyət, keyfiyyət və vaxt etibarılə nail olmağı müəyyənləşdirir.

Biznes sisteminə işgüzar münasibətlərin subyektləri, biznesin infrasturkturu, idarəetmə subyektləri (menecment), marketinq, fəaliyyətin qiymətləndirilməsi və s. aiddir. Biznesin subyektləri kimi sahibkarlar, istehlakçılar, muzdla tutulmuş işçilər, dövlət strukturları çıxış edirlər. Onların qarşılıqlı fəaliyyətinin əsasını tərəflərin qarşılıqlı gəlir götürmək prinsipi təşkil edir. [1, s. 17-18]

İ.e.d., professor Alıcan Abbasovun fikirlərinə onu da əlavə etmək istərdik ki, biznes fəaliyyətinin subyektlərini təşkil edən qurumlar yalnız pul ifadəsində mənfəət əldə etmirlər. Doğrudur, sahibkarlar, muzdlu işçilər gəlir və əməkhaqqı formasında vəsait əldə edirlər. Lakin istehlakçıların maraqları əlverişli formada bazara giriş imkanları əldə etməkdən ibarətdir. Dövlətin maraqları isə daha çox strateji xarakter daşıyır. Biznes fəaliyyətinin reallaşdırılması baxımından dövlətin maraqları ilk növbədə xarici bazarın qorunması, cəmiyyətin aztəminatlı təbəqələrinin sosial təminatının yaxşılaşdırılması, onların bərabərhüquqlu formada bazardan istifadə imkanlarının təmin edilməsi və ən nəhayət dövlətin iqtisadi və ərzaq təhlükəsizliyini effektiv şəkildə təmin etməkdən ibarətdir.

Müasir şəraitdə biznes fəaliyyəti yeni bazar yaratmaqla mövcud istehsalın və müəssisənin təməlini dəyişdirərək yeni məhsulların istehsalı, istehsalın təşkili üçün yeni metodların tətbiqi, məhsulların, yeni avadanlıqların və texnologiyaların keyfiyyətinə nəzərət sistemini özündə birləşdirən fəaliyyət kimi səciyyələnir. Biznes fəaliyyəti ilk növbədə bütün mövcud imkanlardan iqtisadi artımı təmin etmək məqsədi ilə istifadəni nəzərdə tutan və mövcud istehsal resurslarından səmərəli istifadə ilə bağlı fəaliyyəti özündə birləşdirir. Biznes fəaliyyəti xüsusi bir qrup sahibkarlıq subyektlərinin, ya da sahibkarların peşəkar fəaliyyəti sahəsi kimi də səciyyələnir. Sahibkar maddi təhlükə daxil olmaqla, öz təhlükəsi və ya riskləri altında, öz məsuliyyəti altında fəaliyyət göstərən müstəqil social-iqtisadi institutdur. Qəbul edilmiş qanunvericiliyə görə sahibkarlıq subyekti qanunla müəyyən edilmiş qaydada fəaliyyəti özündə əks etdirir, iqtisadi azadlıqlara əsaslanır və azad rəqabət şəraitində qurumların yerinə yetirdiyi fəaliyyət kimi səciyyələnir. Doğrudur, biznes fəaliyyətinin ən başlıca məqsədini mənfəət əldə etmək istiqamətində həyata keçirilən təşəbbüskarlıq fəaliyyətinin məcmusu təşkil edir. Lakin bütün bunlara baxmayaraq biznes fəaliyyəti ilk növbədə müstəqillik, məsuliyyətlilik, risklik, yeni bir ideyaların real axtarışı, eləcə də inkişaf dinamikasi və hərəkətlilik kimi xüsusiyyətləri də özündə əks etdirir. Sahibkarlığın ən əhəmiyyətli məqamlarından biri onun müstəqilliyidir. Sahibkar iqtisadi müstəqillik prinsiplərinə əsasən fəaliyyət göstərir və bazar konyunkturunda baş verən dəyişikliklərə çevik şəkildə reaksiya göstərmək imkanına malik olmaqla bütün məsələləri müstəqil şəkildə həll etmək bacarığını özündə birləşdirən fərdlərdən və qruplardan, kollektivlərdən ibarətdir. Yuxarıda qeyd etdiyimiz kimi şəxsi maraq biznes fəaliyyətinin hərəkətverici amili kimi çıxış edir və bu zaman öz mənafelərini güdən iqtisadi qurumun ictimai maraqlar naminə fəaliyyəti kimi dəyərləndirilə bilər. Şəxsi mənfəətin ön plana çəkilməsi ilk növbədə mövcud resurslardan səmərəli istifadə edilməsini, məhsul istehsalı və xidmətlər göstərilməsi ilə bağlı xərclərin azaldılmasını nəzərdə tutur.

Beynəlxalq münasibətlər sisteminin qloballaşdığı müasir şəraitdə biznes fəaliyyəti üçün xarakterik məqamlardan biri ilk növbədə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlərin göstərilməsini nəzərdə tutan fəaliyyət azadlığıdır.

Biznes fəaliyyətinin xarakterik xüsusiyyətlərindən biri ilk növbədə sosial şərtlərin iqtisadi şərtlərlə sıx bağlılığının nəzərə alınmasıdır. Məsələn, nəzərə almaq lazımdır ki, alıcıların zövqləri davamlı olaraq dəyişir və bu baxımdan biznes fəaliyyəti ilk növbədə istehlakçı davranışlarına uyğun olaraq məhsul istehsalı və xidmətlər göstərilməsini özündə birləşdirməlidir. Ümumiyyətlə, sosial-mədəni mühitdən asılı olaraq cəmiyyətdə mövcud olan əxlaqi və etik normalar da əhəmiyyətli rol oynayır. İstehlakçıların həyat tərzinə və məhsullara olan tələbatına birbaşa təsir göstərilməsi sahibkarlığın sosial şərtlərini özündə əhəmiyyətli şəkildə ehtiva etməsini nəzərdə tutur. Sosial şərtlər fərdin bu və ya digər fəaliyyətində münasibətinə təsir edir və bu da öz növbəsində onun əmək haqqının həcmindən və müəssisənin təklif etdiyi iş şəraitinin müəyyən edilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Biznes fəaliyyətindən məmnunluq əslində işçilərin əmək fəaliyyəti, sağlamlığın qorunması, iş yerlərinin qorunması və s. bağlı sosial məsələlərin həllində onların əhəmiyyətli dərəcədə iştirak imkanlarını təmin edir. Texnoloji mühit, istehsalın avtomatlaşdırılması və təkmilləşdirilməsi sahibkarlığa təsir edən elmi-texniki inkişaf fəaliyyətini də özündə əks etdirir.

Məlum olduğu kimi, müasir şəraitdə dünyada qloballaşma prosesləri bütövlükdə hər bir ölkənin iqtisadiyyatına əhəmiyyətli dərəcədə nüfuz edir. Qloballaşma prosesi üçün xarakterik cəhətlərdən biri qeyri-müəyyənlik və davamlı olaraq dəyişikliklərin mövcudluğudur. Biznes fəaliyyəti nəinki ölkə daxilində, eləcə də dünyada baş verən dəyişikliklərə effektiv reaksiya göstərmək imkanlarını özündə əks etdirməlidir. Biznes fəaliyyəti xarici mühitdə konyunktur dalğalanmaları mövcud olduğu halda kifayət qədər qeyri-adekvat qərarların qəbul edilməsi, eləcə də böhranlar şəraitində antiböhranlı idarəetmə fəaliyyətinin həyata keçirilməsini özündə əks etdirməlidir.

**Biznes fəaliyyətinin növ müxtəlifliklərinin milli iqtisadiyyatın inkişafında rolu**

Dünya praktikası göstərir ki, biznes fəaliyyətinin çoxsaylı növ müxtəliflikləri mövcuddur. Bu növ müxtəlifliklərinə əsas etibarılə istehsal biznesini, kommersiya biznesini, maliyyə biznesini, konsultativ biznes fəaliyyətini və s. şamil etmək olar. İstehsal biznesi adından da məlum olduğu kimi biznes fəaliyyətinin ən mühüm tərkib hissəsini təşkil etməklə iqtisadiyyatın real sektorunun inkişafına əlverişli şərait yaratmaqla daxili bazarın məhsul və xidmətlərlə zənginləşdirilməsinə, eləcə də bazarda qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə xidmət edir. İstehsal biznesinin özünəməxsus səciyyəvi xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlərə ilk növbədə istehsal biznesində sahibkarlıq və biznes risklərinin çoxsaylı xarakter daşımasını şamil etmək olar. Ona görə də biznes strukturları sahibkarlıq və biznes risklərinin minimuma endirilməsi istiqamətində çoxsaylı cəhdlər göstərirlər. İstehsal biznesinin riskli xarakter daşıması əsas etibarı ilə biznesin təhlükəsizliyi və iqtisadiyyatın ayrı-ayrı sahələrində, o cümlədən kənd təsərrüfatında təbii iqlim şəraitinin dominant təsirə malik olması ilə sıx bağlıdır. Odur ki, Qərb ölkələrinin praktikasında biznes risklərinin effektiv şəkildə sığortalanması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

İstehsal biznesinin səciyyəvi xüsusiyyətlərindən biri də istehsal fəaliyyətinin həyata keçirilməsində istehsal potensialının bütün elementlərindən səmərəli istifadə edilməsidir. Məlum olduğu kimi məhsul istehsalı və xidmətlərin göstərilməsi zamanı iqtisadi potensialın bu və ya digər elementlərindən, eləcə də əmək, kapital, texnologiya, maddi-texniki resurslardan və onların effektiv kombinasiyalarından istifadə edilir. İstehsal biznesinin xarakterik məqamlarından biri də istehsal və dövriyyə fondlarından istifadə edilməsi və eləcə də həmin fondların əldə edilməsi ilə bağlı kapital resurslarına olan ehtiyatların ödənilməsidir. Nəzərə almaq lazımdır ki, biznes fəaliyyətinin digər növ müxtəlifliklərindən fərqli olaraq istehsal biznesində kapitalın ödəmə müddəti nisbətən uzunmüddətli xarakter daşıyır. Belə ki, əgər kommersiya biznesində kapitalın ödənilmə müddəti bilavasitə dövriyyə prosesindən-məhsulun satışı prosesinin bitməsindən asılı olursa, istehsal biznesində kapitalın ödənilməsi maddi-texniki resurslarla təchizat və s. faktorlardan bilavasitə asılı olur.

Kommersiya biznesi xüsusilə transformasiya prosesinin ilkin dövrlərində daha çox geniş yayılmışdır və hazırda da aktuallığını qorumaqdadır. Kommersiya biznesinin xarakterik məqamlarından biri ilk növbədə məhsulların alqı-satqısı və ya yenidən satışı proseslərinin həyata keçirilməsidir. Kommersiya biznesinin xarakterik cəhətlərindən biri də bazar iqtisadiyyatı şəraitində azad rəqabət mühitinin hakim mövqe tutması ilə bağlıdır. Biznes fəaliyyətində azad rəqabət mühitinə üstünlük verilməsi ilk növbədə inhisarçılığın qarşısının alınması ilə sıx əlaqədardır.

Maliyyə biznesi - biznes fəaliyyətinin özünəməxsus növ müxtəlifliyi olub, onun predmetini, kapital və qiymətli kağızlarının alqı-satqısını təşkil edir. Kommersiya biznesinin təşkilati strukturlarını bir qayda olaraq banklar və kredit qurumları təşkil edir.

Konsultativ biznes fəaliyyətinin əsasını bu və ya digər iqtisadi layihələrin gerçəkləşdirilməsi ilə bağlı məsləhət xidmətlərinin göstərilməsi təşkil edir. Konsultativ xidmətlər bazar iqtisadiyyatı şəraitində daha çox layihə menecmenti çərçivəsində reallaşdırılır və inkişaf etdirilir.

Qeyd etmək lazımdır ki, biznes fəaliyyətinin yuxarıda adı çəkilən növ müxtəlifliyi üçün xarakterik olan ən mühüm məqam iqtisadi azadlıqların mövcudluğu və eləcə də məhsulun, xidmətlərin, işçi qüvvəsinin və kapitalın sərbəst hərəkətinin təmin olunmasıdır. Nəzərə almaq lazımdır ki, 2019-cu ildən etibarən dünyada yayılan koronavirus pandemiyası iqtisadi potensialın bütün elementlərinin sərbəst hərəkətini məhdudlaşdırmışdır ki, bu da dünyanın bütün ölkələrində iqtisadi fəallığın aşağı düşməsinə əlverişli şərait yaratmışdır. Koronavirus pandemiyasının doğurduğu ən mühüm təzahür ondan ibarətdir ki, xüsusilə ölkələr arasında iqtisadi əlaqələrin kəsilməsi, eyni zamanda "Evdə qal" kampaniyası çərçivəsində fərdlər, regionlar və ölkələr ilk növbədə ərzaq təhlükəsizliyini- ərzaq məhsullarına olan tələbatın daxili mənbələr hesabına ödənilməsi, əczaçılıq məhsullarına olan tələbatın ödənilməsini təmin etməlidirlər. İqtisad elmləri doktoru Anar Abbasovun fikrincə qlobal iqtisadi böhran ilk növbədə əhalinin gəlirlərinin səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır. Koronavirus pandemiyası dünya ölkələrində maliyyə bank sektorunun da çökməsinə səbəb olmuş və qlobal miqyasda gəlirlərin səviyyəsinin azalmasına öz təsirini göstərmişdir. Koronavirus pandemiyası şəraitində əhalinin gəlirlərinin səviyyəsinin aşağı düşməsinin özünəməxsus səbəbləri mövcuddur. Doğrudur, etiraf etmək lazımdır ki, iqtisadiyyatın bu və ya digər sahələrində rəsmi fəaliyyət göstərən işçilərə dövlət büdcəsi tərəfindən müəyyən ödənişlər təklif edilir və həcmindən asılı olmayaraq bu və ya digər şəkildə problemin qarşılanmasında istifadə edilə bilir. Lakin nəzərə almaq lazımdır ki, dünyanın elə ölkələri mövcuddur ki, həmin ölkələrdə iqtisadiyyatın qeyri-formal sektoru da kifayət qədər çoxsaylı işçi qüvvəsi ilə təmin olunur və həmin sahələrdə məhz əhalinin məşğulluğu təmin edilir. Təkcə bir faktı qeyd etmək olar ki, Latın Amerikasında iqtisadiyyatın qeyri-formal sektorunda işçi qüvvəsinin təxminən 50%-dən yuxarı hissəsi məşğul olur.

Beynəlxalq Əmək Təşkilatının məlumatına görə təkcə 2020-ci ilin ikinci rübündə dünya üzrə 400 milyondan çox işçi qüvvəsinin itirilməsi halları müşahidə edilmişdir, inkişaf etməkdə olan ölkələrdə bu hallar daha çöx özünü büruzə vermişdir. 2020-ci ildə dünya iqtisadiyyatında artım meyillərinin kəskin şəkildə məhdudlaşmasının nəticəsidir ki, dünya iqtisadiyyatında 5-8%-ə qədər azalma müşahidə edilmişdir. Bu cür azalma dünya üzrə miqrantlarm pul gəlirlərinin həcminə də öz təsirini göstərmişdir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə maliyyələşmənin xarici mənbələri təxminən 20%-ə qədər aşağı düşmüşdür. Dünya Bankının qiymətləndirmələrinə görə koronavirus pandemiyasının birbaşa nəticəsi kimi 2020-ci illərin sonlarında kəskin yoxsulluq həddində yaşayan insanların sayı təxminən 71-100 mln nəfər əhali həddində artmışdır.

Hazırda bilavasitə pandemiyanm nəticələrinə görə təxminən 135 mln nəfərdən çox insan kəskin aclıq problemi ilə üzləşməkdədir. Kəskin aclıq problemi ilə üzləşən əhalinin təxminən 45 mln nəfəri Asiya və Afrika ölkələrinin payına düşür. Gəlirlərinin səviyyəsinin məhdudlaşdırılması ərzaq məhsullarına olan tələbin aşağı düşməsinə gətirib çıxarmışdır ki, bu da öz növbəsində aqrar ərzaq kompleksində çalışan işçi qüvvəsinin sayının təxminən 451 mln nəfərə qədər məhdudlaşması və eləcə də dünya üzrə formal rəsmi sektorda çalışan işçilərin 35%-nin ixtisar olunmasına gətirib çıxarmışdır.

Koronovirus pandemiyası cəmiyyətdə qeyri-bərabərliyin artmasına, o cümlədən gəlirlərin bölüşdürülməsindəki bərabərsizlik səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. COVİD -19 pandemiyası qloballaşma şəraitində mövcud olan sosial bərabərsizliyin daha da dərinləşməsinə gətirib çıxarmışdır. Ərzaq təhlükəsizliyi probleminin özünü kəskin şəkildə büruzə verməsi son nəticədə yoxsulluq həddində yaşayan əhalinin sayının artmasına gətirib çıxarmışdır ki, bu da ilk növbədə əhalinin aztəminatlı təbəqələrinin tibbi xidmətlərə olan çıxış imkanlarının praktik olaraq məhdudlaşmasına səbəb olmuşdur.

Bununla yanaşı, COVİD -19 pandemiyası eyni zamanda təhlükəsiz su mənbələrinə çıxış imkanlarında qeyri-bərabərlik problemlərinin daha da dərinləşməsini şərtləndirmiş və xidmətlərə olan ehtiyacların ödənilməsində qeyri-bərabərlik davam etməkdədir. Bu prosesdən xüsusilə miqrantlar daha çox əziyyət çəkməkdədir. Təbiidir ki, ölkələr öz əhalisini qida məhsulları ilə təchiz etmək baxımdan və eləcə də sosial xidmətlərə olan ehtiyaclarını ödəmək baxımından problemlərlə üzləşdikləri halda miqrantların bu və ya digər xidmətlərə olan ehtiyaclarının ödənilməsində təbii ki, çoxsaylı problemlər yaranır. Bu ilk növbədə qeyri-formal şəkidə bu və ya digər ölkəyə daxil olan miqrantların həyat şəraitində baş verən problemləri özündə əks etdirir. [2, s. 147-148]

**Postsovet məkanı ölkələrində biznes fəaliyyətinin inkişaf mərhələləri**

Biznes fəaliyyətinin formalaşması iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə uzunmüddətli tarixi bir dövrü özündə əks etdirir. Biznes fəaliyyətinin formalaşması və inkişaf etdirilməsi bütövlükdə bazar iqtisadiyyatı əsasında inkişaf etmiş ölkələr üçün səciyyəvi cəhətlərdən biri hesab edilir. Keçmiş sosialist məkanı ölkələri üçün biznes fəaliyyətinin inkişafı heç də uzunmüddətli bir dövrü əhatə etmir. Sovetlər Birliyinin mövcud olduğu dövrdə planlaşdırma və dövlət idarəetmə sisteminin tətbiqi, eləcə də mərkəzləşdirilmiş iqtisadi münasibətlər sisteminin hakim mövqe tutması bütövlükdə biznes fəaliyyətini, bazar iqtisadiyyatının ayrı-ayrı institutlarını və azad rəqabət fəaliyyətini, demək olar ki, əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır. Lakin biznes fəaliyyətinin inkişafına ötən əsrin 80-ci illərinin sonlarından etibarən bu və ya digər şəkildə iqtisadi imkanlar yaradılmışdır. Odur ki, keçid dövrünü başa çatdırmış postsovet məkanı ölkələrində biznes fəaliyyətinin inkişafını aşağıdakı mərhələlərdə xarakterizə etmək mümkündür.

1-ci mərhələ 1987-1989-cu ilə qədərki dövr. Bu dövr ilk növbədə biznes fəaliyyətinin inkişafında ilkin dövrlər kimi xarakterizə edilir və əsas etibarilə çoxsaylı kooperativlərin yaranması ilə xarakterizə edilir. Həmin dövrdə xırda biznesin inkişafının başlıca məqsədi ilk növbədə daxili bazarın istehlak məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynamaqdan ibarət idi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, həmin dövrdə kooperativlərin inkişafında əhəmiyyətli rol qət olunsa da, lakin bütövlükdə dövlətin iqtisadi institutları və inzibati-idarəetmə resursları sahibkarlığın inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilmirdi. Bundan əlavə, infrastruktur sisteminin inkişaf etməməsi, eləcə də kooperativlərin maliyyə resurslarına olan tələbatının ödənilməsində də çoxsaylı problemlər mövcud idi.

Biznes fəaliyyətinin inkişafının ikinci mərhələsi keçmiş Sovetlər dövründə 1990-91-ci illəri əhatə edir. Bu dövrdə biznes fəaliyyətinin, xüsusilə kiçik müəssisələrin inkişafi ilə bağlı bu və ya digər qanunvericilik aktları qəbul edilməyə başlandı. Ümumiyyətlə, cəmiyyətdə biznes fəaliyyətinə meyil demək olar ki, intensiv əsaslarla genişlənməyə başlandı. Ticari münasibətlərin inkişaf etdirilməsi bazar iqtisadi institutlarının formalaşdırılmasında əhəmiyyətli rol oynayırdı. 1990-91-ci illərdə keçmiş Sovetlər Birliyinin ayrı-ayrı ölkələrində dövlət müəssisələrinin xırda miqyaslarda da olsa özəlləşmə prosesləri baş verirdi ki, bu da xirda sahibkarlığın inkişafında əhəmiyyətli rol oynayırdı.

Sahibkarlığın inkişafının üçüncü mərhələsi 1991-1993-cü illəri əhatə edir. Bu dövrdə xüsusilə sahibkarlığın kommersiya formaları geniş şəkildə inkişaf etməyə başladı. Bu isə ilk növbədə məhsul satışı və xidmətlər göstərilməsi ilə bağlı fəaliyyətin daha da genişlənməsinə əlverişli şərait yaratdı. Həmin dövrlərdə ayrı-ayrı postsovet respublikalarında bankların və digər maliyyə institutlarının formalaşması sahibkarlıq qurumlarının maliyyə resurslarına olan tələbatının ödənilməsində bu və ya digər şəkildə mühim rol oynayırdı.

Biznes fəaliyyətinin inkişafında dördüncü mərhələ 1994-1998-ci illləri əhatə edir. Həmin dövrün xarakterik məqamlarından biri ondan ibarət idi ki, biznes fəaliyyətinin inkişafı ilə bağlı kütləvi qanunlar qəbul edilir və eyni zamanda dövlət əmlakının genişmiqyaslı özəlləşdirilməsi prosesi həyata keçirilirdi. Bu proses ayrı-ayrı respublikalarda iqtisadi böhranların şiddətlənməsi ilə müşahidə olunduğundan biznes fəaliyyətinin iqtisadiyyatda rolu demək olar ki, o qədər də müşahidə edilmirdi. Yaranan ilk sahibkarlar demək olar ki, iqtisadi böhranlar şəraitində bu və ya digər şəkildə davamlı olaraq müflisləşmə təhlükəsini yaşayır və iqtisadi arenanı tərk edirdi.

1997-2002-ci illərdə isə sahibkarlığın inkişafının 5-ci mərhələsi xarakterik xüsusiyyət əldə etməyə başladı ki, bu mərhələnin də xüsusi xarakterik məqamlarından biri daha çox vasitəçilik fəaliyyətinin geniş yayılması idi. Bundan əlavə, kapitalın təmərküzləşməsi və mərkəzləşdirilməsi ilə bağlı tendensiyalar da özünü büruzə verirdi.

Ən nəhayət 2000-ci ildən sonrakı dövrdən hazırkı dövrə qədər biznes fəaliyyətinin növbəti mərhələsi yaşanır ki, bu mərhələ də ilk növbədə bütövlükdə iqtisadiyyatda biznes fəaliyyətinə geniş rol verilməsi, eləcə də sahibkarların infrastruktur sisteminin yaradılması ilə səciyyələnir. İqtisadiyyatın bütün sahələrində biznes fəaliyyətinin inkişaf etdirilməsinə əlverişli şərait yaradılması, eləcə də sahibkarlıq qurumlarına güzəştli şərtlərlə kreditlərin verilməsi, onların daxili bazarın tələbatının ödənilməsində əhəmiyyətli rol oynaması bu dövrün səciyyəvi cəhətlərindən biri kimi çıxış edir.

İnkişaf etmiş ölkələrdə biznes fəaliyyətinin inkişafını səciyyələndirən ən mühüm cəhətlərdən biri sahibkarlıq qurumlarına dövlət dəstəyinin və eləcə də qeyri-hökumət təşkilatları tərəfindən zəruri dəstəklərin verilməsi ilə bağlıdır. Bu cür qeyri-müəyyənliklər bir sıra hallarda biznes fəaliyyəti üçün əhəmiyyətli risklər yaradır və bu risklərin qarşısının alınması üçün isə sahibkarlıq qurumları əslində daxili və xarici bazarda baş verən konyunktur dalğalanmalarına çevik şəkildə reaksiya göstərməlidirlər.

### *Nəticə*

Beləliklə, biznes fəaliyyəti milli iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı eyni zamanda müasir şəraitdə əhalinin məşğulluğunun təmin edilməsində və gəlirlərinin formalaşmasında əhəmiyyətli rol oynamaqla cəmiyyətdə sosial sabitliyin qorunmasına və bazarlarda bolluğa və qiymət sabitliyinə nail olunmasına xidmət edir. Biznes fəaliyyətinin növ müxtəlifliklərinin optimal kombinasiyası milli iqtisadiyyatın sahə və ərazi kəsimlərində tarazlığın təmin edilməsinə, geniş təkrar istehsal prosesinin ayrı-ayrı elementləri arasında inteqrasiya münasibətlərinin uğurla reallaşdırılmasına əlverişli şərait yaradır.

### ƏDƏBİYYAT

1. Biznesin əsasları (A.B.Abbasovun ümumi redaktəsi ilə. Bakı, 2005, 656 s., s. 17-18).
2. Anar Abbasov. COVİD-19 Pandemiyasının qlobal ərzaq təhlükəsizliyinə və kənd təsərrüfatının inkişafına təsiri. Azərbaycan Kooperasiya Universiteti, “Kooperasiya” elmi-praktik jurnal. №1 (60-221) s. 141-154, s. 147-148.

***Рамиль Алойсад оглы Аскеров***
***докторант Азербайджанского Государственного Аграрного Университета***

## Особенности развития предпринимательства в национальной экономике

### *Резюме*

**Цель исследования -** изучить роль бизнеса в национальной экономике и выявить факторы, влияющие на бизнес.

**Методология исследования -** в работе использовались методы сравнительного анализа, группировки, обобщения и анализа.

**Значимость исследования -** нейтрализация деструктивных проявлений внутренних и внесних факторов среды ведения бизнеса, по сути, создает благоприятные условия для повышения экономической активности и предпринимательской активности, что положительно сказывается на повышении деловой привлекательности национальной экономики и увеличении перспектив. для предпринимательства. В связи с этим важно нейтрализовать внутренние и внесние угрозы развитию бизнеса в национальной экономике.

**Результаты исследования -** в целях повышения роли бизнеса в национальной экономике, ведения устойчивого бизнеса, обеспечения эффективной интеграции национального бизнеса в мировую экономическую систему были даны рекомендации.

Оригинальность и научная новизна исследования - повышение эффективности бизнес-организаций, формирование инфраструктуры бизнеса, создание благоприятной бизнес-среды как для производителей, так и для потребителей, выявление факторов, деструктивно влияющих на деловую активность.

***Ключевые слова: национальная экономика, деловая активность, бизнес-среда, производственные отношения, инвестиционная среда.***

***Ramil Aloysad Asgarov***
***doctoral student of Azerbaijan State Agrarian University***

**Specific features of business development in the national economy**

**Summary**

**The purpose of the study**- is to study the role of business in the national economy and to identify the factors that affect business.

**Research methodology -** comparative analysis, grouping, generalization and analysis methods were used in the research work.

**Significance of the research -** neutralization of destructive manifestations of internal and external environmental factors of business, in fact, creates favorable conditions for increasing economic activity and entrepreneurship, which has a positive impact on increasing the business attractiveness of the national economy and increasing the prospects for entrepreneurship. In this regard, it is important to neutralize internal and external threats to business development in the national economy.

**The results of the study -** in order to increase the role of business in the national economy, to carry out sustainable business activities, to ensure the effective integration of national businesses in the global economic system, recommendations were made.

**Originality and scientific novelty of the research** - increasing the efficiency of business organizations, the formation of business infrastructure, the creation of a favorable business environment for both producers and consumers, the identification of factors that have a destructive effect on business.

***Key words: national economy, business activity, business environment, production relations, investment environment.***